

# ŞƏRQ qapısı


*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 32 (24.169)

*18 fevral 2023-cü il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Azərbaycan Prezidenti İlham Əliyevin Almaniyaya səfəri – Azərbaycanın Avropa İttifaqının etibarlı tərəfdaşı olmasının növbəti təzahürü

### *Münxendə Almaniyanın Şərqi Biznes Assosiasiyasının baş icraçı direktoru ilə görüş*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 59-cu Münxen Təhlükəsizlik Konfransında iştirak etmək üçün Almaniya Federativ Respublikasında səfərdədir.

Fevralın 17-də dövlətimizin başçısı Münxendə Almaniyanın Şərqi Biznes Assosiasiyasının baş icraçı direktoru Mixael Harms ilə görüşüb.

Prezident İlham Əliyev Almaniya şirkətlərinin Azərbaycanda fəaliyyəti üçün yaxşı şəraitin yaradıldığını, alman şirkətləri ilə uğurlu təcrübəmizin olduğunu, ölkələrimiz arasında sənaye, ticarət və iqtisadiyyatın müxtəlif sahələri üzrə əməkdaşlıq əlaqələrinin mövcudluğunu qeyd etdi.

Dövlətimizin başçısı ötən il Azərbaycanla Almaniya arasında ticarət dövriyyəsinin genişlənməsini yüksək qiymətləndirdi, qarşılıqlı ixracın artmasını müsbət amil kimi dəyərləndirdi.

Prezident İlham Əliyev Azərbaycanın Avropa İttifaqının etibarlı tərəfdaşı olduğunu və Avropa İttifaqı ilə ölkəmiz arasında sıx münasibətlərin mövcudluğunu bildirdi.

Görüşə görə təşəkkürünü bildirən Almaniyanın Şərqi Biznes Assosiasiyasının baş icraçı direktoru Mixael Harms dövlətimizin başçısı ilə sonuncu görüşünü məmnunluqla xatırladı. Bildirdi ki, COVID-19 pandemiyasının törətdiyi fəsadlara baxmayaraq, Almaniya ilə Azərbaycan arasında iqtisadi əlaqələrin inkişafında və ticarət dövriyyəsində əsaslı artım var.



Prezident İlham Əliyev Azərbaycanda müxtəlif istiqamətlərdə, o cümlədən vergi və gömrük sahələrində həyata keçirilən islahatlar barədə məlumat verdi, ölkəmizin xarici sərmayədarlar üçün cəlbedici investisiya məkanı olduğunu vurğuladı. Dövlətimizin başçısı, eyni zamanda ölkəmizdə azad ticarət zonasının yaradılması istiqamətində atılan addımlar, Azərbaycanın logistika və nəqliyyat imkanlarının artması barədə məlumat verdi. Bu xüsusda Almaniya şirkətlərinin Azərbaycanda fəaliyyəti üçün geniş imkanların mövcud olduğunu diqqətə çatdırdı, Almaniyanın Şərqi Biznes Assosiasiyasının tərkibinə daxil olan şirkətləri tanışlıq məqsədilə ölkəmizə səfərə dəvət etdi.

Azərbaycan Prezidenti işğaldan azad olunmuş ərazilərdə bərpa-quruculuq işlərinin həyata keçirilməsində alman şirkətlərinin təmsilçiliyi üçün geniş imkanların olduğunu bildirdi.

Dövlətimizin başçısı, eyni zamanda “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” çərçivəsində Azərbaycan iqtisadiyyatının inkişafı üçün strateji prioritetlərin müəyyənləşdirildiyini qeyd edərək bu sahədə ölkələrimiz arasında, o cümlədən alman şirkətləri ilə əməkdaşlıq üçün geniş imkanların olduğunu dedi.

Prezident İlham Əliyev, həmçinin Azərbaycanda bərpa olunan enerjinin inkişafı məqsədilə həyata keçirilən layihələri, Avropa İttifaqı ilə ölkəmiz arasında enerji sahəsində tərəfdaşlığı qeyd etdi, Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayenin iştirakı ilə ötən il Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində imzalanmış strateji sənədin əhəmiyyətini bildirdi. Dövlətimizin başçısı ölkəmizin həm Xəzər dənizinin Azərbaycan sektorunda, həm də quruda böyük həcmdə bərpa olunan enerji potensialına malik olduğunu qeyd etdi, Avropa İttifaqı ilə tərəfdaşlıq çərçivəsində bu layihənin inkişafı istiqamətində tədbirlərin həyata keçirildiyini dedi və alman şirkətləri ilə də bu sahədə əməkdaşlıq üçün böyük imkanların olduğunu vurğuladı. Prezident İlham Əliyev bu xüsusda Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında imzalanmış dördtərəfli memorandumun əhəmiyyətini qeyd etdi.

Ətraflı məlumata görə minnətdarlığını bildirən Mixael Harms Almaniya şirkətlərinin Azərbaycanda məmnuniyyətlə fəaliyyət göstərdiyini vurğuladı, Azərbaycanın alman şirkətlərinin birbaşa investisiyaları üçün cəlbedici məkan olduğunu, ölkəmizin nəqliyyat-logistika imkanlarının daha da genişlənməsinin alman şirkətləri üçün əlavə cəlbedicilik yaratdığını dedi. O, alman şirkətləri ilə birlikdə məmnuniyyətlə Azərbaycana səfər etmək niyyətində olduğunu diqqətə çatdırdı.

Mixael Harms Almaniya şirkətlərinin bərpa olunan enerji sahəsinə xüsusi maraq göstərdiyini vurğuladı, bu sahədə də əməkdaşlıq üçün böyük imkanların olduğunu bildirdi.

## Prezident İlham Əliyev Münxen Təhlükəsizlik Konfransı çərçivəsində enerji təhlükəsizliyi ilə bağlı dəyirmi masada iştirak edib

Fevralın 17-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində “Boru arzuları: Gələcəyə uyğun enerji təhlükəsizliyi” mövzusunda dəyirmi masa keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Ölkəmizin Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfədən danışan dövlətimizin başçısı bildirdi ki, ötən il Azərbaycanın qaz təchizatının artırılması qısamüddətli perspektivdə Avropanın enerji təhlükəsizliyinə verilən töhfə idi. Orta və uzunmüddətli perspektivdəki hədəf isə Azərbaycan tərəfindən irəli sürülən Cənub Qaz Dəhlizinin genişləndirilməsidir. Prezident İlham Əliyev qeyd etdi ki, 2027-ci ilədək TAP-la qaz nəqlinin indiki 11 milyard kubmetrdən 20 milyard kubmetrə, TANAP-la isə 16 milyard kubmetrdən 31 milyard kubmetrə çatdırılması nəzərdə tutulur.

Ötən il Bakıda Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenin iştirakı ilə Azərbaycanla Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumunun imzalandığını xatırladan dövlətimizin başçısı vurğuladı ki, enerji sahəsində Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı bu sənədə uyğun olaraq bundan sonra da genişlənəcək.

Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlıqda bərpa olunan enerjinin xüsusi rolunun olduğunu deyən Prezident İlham Əliyev ölkəmizin son dövrlər bu sahədə bir sıra vacib addımlar atdığını diqqətə çatdırdı. Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycanda bu istiqamətdə artıq bir sıra layihələr həyata keçirilir, həmçinin 25 qiqavatadək enerji istehsalı ilə bağlı müxtəlif sənədlər imzalanıb. Bu isə Azərbaycanın istehsal etdiyi yaşıl enerjinin daxili istehlakla yanaşı, Avropaya ixrac edilməsinə də imkan verəcək ki, bu da orta və uzunmüddətli perspektivdə Avropanın enerji təhlükəsizliyinə töhfə olacaq. Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycan bundan sonra da Avropanın enerji təhlükəsizliyində vacib rol oynamağa davam edəcək.



Tədbirdə digər çıxış edənlər Azərbaycanın ötən dövrdə, xüsusilə keçən il Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfəni xüsusi vurğuladılar, Azərbaycanla bu sahədə əməkdaşlığı yüksək qiymətləndirdilər və onun davamlı olacağına əminliklərini bildirdilər.



## Prezident İlham Əliyevin Münxendə Avropa İttifaqı Şurasının Prezidenti ilə görüşü olub

Fevralın 17-də Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ilə görüşü olub.

Görüşdə Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması, sülh müqaviləsi üzrə danışıqlar və Brüssel sülh prosesi ətrafında müzakirələr aparıldı.

Prezident İlham Əliyev Azərbaycanın Brüssel sülh prosesini dəstəklədiyini qeyd etdi.

Şarl Mişel Avropa İttifaqının Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılmasında, sülh müqaviləsi üzrə danışıqlarda, Cənubi Qafqazda sabitliyin və təhlükəsizliyin təmin olunmasında səylərini bundan sonra da davam etdirəcəyini bildirdi.

Söhbət zamanı, həmçinin Avropa İttifaqının Ermənistandakı missiyasının fəaliyyəti barədə fikir mübadiləsi aparıldı.

## Prezident İlham Əliyev Münxendə Avropa Ravvinləri Konfransının prezidenti ilə görüşüb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 17-də Münxendə Avropa Ravvinləri Konfransının prezidenti Pinhas Qoldşmit ilə görüşüb.

Görüşdə dövlətimizin başçısı tarixən yəhudi icmasının Azərbaycanda dostluq, mehribanlıq və qarşılıqlı anlaşma mühitində yaşadığını, dini ibadətlərini sərbəst yerinə yetirdiyini, sinaqoqların fəaliyyəti üçün şəraitin yaradıldığını qeyd etdi.

Azərbaycanın Quba rayonunda yaşayan yəhudi icması haqqında danışan Prezident İlham Əliyev dövlətimiz tərəfindən yəhudi icmasına daim dəstək göstərildiyini, onların yaşayış şəraitinin yaxşılaşdırılması üçün mütəmadi olaraq tədbirlərin görüldüyünü vurğuladı. Dövlətimizin başçısı bunun minilliklərboyu Azərbaycan xalqının həyat tərzi olduğunu diqqətə çatdırdı.



Avropa Ravvinləri Konfransının prezidenti Pinhas Qoldşmit 1997-ci ildə Azərbaycana səfərini və Ulu Öndər Heydər Əliyev ilə görüşünü məmnunluqla xatırladı, Ümummilli Liderlə görüşün onda zəngin təəssürat yaratdığını qeyd etdi. O, Azərbaycanın yəhudi icmasının fəaliyyətini möhkəm təməllər üzərində davam etdirdiyini vurğuladı, onlara yaradılan şəraitə, göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

Pinhas Qoldşmit Azərbaycanda müxtəlif dinlərin nümayəndələri, o cümlədən yəhudi icması üçün yaradılmış şəraitin digər ölkələrə nümunə olduğunu dedi. O, Quba rayonuna səfər etdiyini və burada yəhudi icmasının yaşayış şəraiti ilə tanış olduğunu vurğuladı, orada 13 sinaqoqun fəaliyyət göstərməsinin onda dərin təəssürat yaratdığını dedi.

Avropa Ravvinləri Konfransının prezidenti Azərbaycan ilə İsrail arasında əlaqələrin hərtərəfli inkişafının məmnunluq doğurduğunu, dünyanın müxtəlif ölkələrində yaşayan yəhudi icmalarının da bu əlaqələrin inkişafına töhfə verdiyini qeyd etdi.

Prezident İlham Əliyev Azərbaycan ilə İsrail arasında tərəfdaşlıq və dostluq əlaqələrinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğuladı. Dövlətimizin başçısı Azərbaycanın İsraildə səfirliyinin açılmasının bu əlaqələrin inkişafına böyük töhfə verəcəyinə əminliyini ifadə etdi.

Görüşdə Avropa yəhudi icmasının nümayəndələrinin Azərbaycana səfər etmək niyyətində olduqları vurğulandı.



## Prezident İlham Əliyevin Münxendə İsrailin müdafiə naziri ilə görüşü olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 17-də Münxendə İsrail Dövlətinin müdafiə naziri Yoav Qallant ilə görüşü olub.

Prezident İlham Əliyev Yoav Qallantı İsrailin müdafiə naziri vəzifəsinə təyin olunması münasibətilə təbrik etdi, onunla Azərbaycanın müdafiə naziri arasında təmasların və telefon danışıqlarının olduğunu məmnunluqla vurğuladı.

Dövlətimizin başçısı Azərbaycanla İsrail arasında münasibətlərin dostluq və tərəfdaşlıq xarakteri daşıdığını, müxtəlif sahələrdə, o cümlədən müdafiə və hərbi-texniki sahədə əməkdaşlığın inkişaf etdiyini bildirdi.

Prezident İlham Əliyev Azərbaycanın İsraildə səfirliyinin tezliklə fəaliyyətə başlamasının əlaqələrimizin inkişafına daha böyük töhfə verəcəyinə əminliyini ifadə etdi.

Yoav Qallant İsrail Dövlətinin rəhbərliyinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi və onun da salamlarını İsrail Dövlətinin rəhbərliyinə çatdırmağı xahiş etdi.

Nazir Yoav Qallant Azərbaycanla İsrail arasındakı əlaqələrin inkişafından məmnunluğunu bildirdi, vaxtilə Azərbaycana səfər etməsini xatırladı, Quba şəhərində yəhudi icmasının yaşaması üçün yaradılmış şəraitin onda böyük təəssürat yaratdığını dedi.

**AZƏRTAC**

## Heydər Əliyev Muzeyinin yaradılmasının 24-cü ildönümü qeyd edilib

Fevralın 17-də Heydər Əliyev Muzeyində bu münasibətlə keçirilən tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natavan Qədimova bildirib ki, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin həyat və fəaliyyətini özündə əks etdirən Heydər Əliyev Muzeyi görkəmli dövlət xadiminin hələ sağlığında Azərbaycanda yaradılmış ilk muzeydir.

Bildirilib ki, xalqımızın milli tarixi və mədəni irsinin qorunmasına həssaslıqla yanaşan Ulu Öndərin rəhbərliyi ilə ötən əsrin 70-ci illərindən etibarən Azərbaycanda muzey şəbəkəsinin inkişafı daha intensiv xarakter alıb, 100-dən çox muzey yaradılıb, ölkəmizdə tarix-diyarşünaslıq muzeyləri, görkəmli tarixi şəxsiyyətlərin, ədəbiyyat və incəsənət xadimlərinin ev-muzeyləri, xatirə muzeyləri təşkil edilib.

Muxtar respublikamızda yaradılan muzeylər içərisində Heydər Əliyev Muzeyinin xüsusi əhəmiyyət daşıdığını vurğulayan Natavan Qədimova bildirib ki, bu mədəniyyət müəssisəsini digərlərində fərqləndirən əsas cəhətlərdən biri budur ki, bu muzey Ulu Öndərimizin doğulduğu, böyüyüb boya-başa çatdığı doğma Naxçıvan torpağında yaradılmışdır. Daim milli qurtuluş və müstəqillik arzuları ilə yaşamış müdrik şəxsiyyət Heydər Əliyev 1999-cu il oktyabr ayının 13-də muxtar respublikaya səfəri zamanı muzeyə gələrək muzeyin ekspozisiyası ilə tanış olmuşdur.

Qeyd edilib ki, 2005-2006-cı illərdə əsaslı şəkildə yenidən qurulan muzey 2006-cı ilin dekabr ayında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə yenidən istifadəyə verilib.

Mədəniyyət naziri Azərbaycan xalqı üçün əlamətdar olan "Heydər Əliyev İli"ndə Ulu Öndərin adını daşıyan muzeyin yaradılmasının 24-cü ildönümü münasibətilə muzeyin əməkdaşlarını və tədbir iştirakçılarını təbrik edib, dahi şəxsiyyətin həyat və fəaliyyətinin bundan sonra təbliğ edilməsi işində kollektivə uğurlar arzulayıb.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı sədrinin müavini-Aparatın rəhbəri Anar İbrahimov "Ulu Öndər Heydər Əliyevin siyasi irsi və müasir Azərbaycan" mövzusunda çıxış edib. Vurğulanıb ki, istər daxili, istərsə də xarici siyasətdə, mədəniyyət, təhsil, bir sözlə, bütün sferalarda Ümummilli Liderimizin yaratdığı irs müasir Azərbaycan dövlətçiliyinin sütunlarını təşkil edir.

"Ümummilli Lider Heydər Əliyev və təhsil siyasəti" mövzusunda çıxış edən Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov bildirib ki, Ulu Öndərin müəllifi olduğu təhsil strategiyası bu gün Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da uğurla davam etdirilir. Müstəqillik illərində Naxçıvan təhsilində əldə olunan uğurlardan danışan nazir vurğulayıb ki, Heydər Əliyev Muzeyi ilə təhsil müəssisələri arasında qurulan sıx əməkdaşlıq muxtar respublikada şagirdlərin Heydər Əliyev irsinin öyrənilməsində mühüm rol oynayır.



Sonra Heydər Əliyev Muzeyinin direktoru, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Ramil Orucəliyev muzey haqqında ətraflı məlumat verib. Bildirib ki, muzeydə dahi rəhbərin ictimai-siyasi fəaliyyətini, keçdiyi şərəfli həyat yolunu özündə əks etdirən 5413 eksponat toplanıb, bunlardan 3000-dən çoxu ekspozisiyada və kitabxanada nümayiş etdirilir.

Sonra tədbir iştirakçıları "Heydər Əliyev – Azərbaycan mədəniyyətinin hamisi" filmini izləyiblər.

Sonda muzeyin ekspozisiyasına baxış keçirilib.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***



## "Heydər Əliyev İli"nə həsr olunacaq tədbirlərin müzakirəsi keçirilib

Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı Tədbirlər Planının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 noyabr tarixli Sərəncamının icrası ilə əlaqədar Naxçıvan Şəhər İcra Hakimiyyətində tədbir keçirilib. Tədbirdə Naxçıvan şəhər mədəniyyət, gənclər və idman idarələrinin, təhsil şöbəsinin əməkdaşları, uşaq musiqi məktəblərinin direktor və şöbə müdirləri, tam orta məktəblərin çağırışaqədərki hazırlıq və fiziki tərbiyə müəllimləri iştirak ediblər.

Tədbiri giriş sözü ilə Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının müavini Təhminə Mustafayeva açıb. Bildirilib ki, bu il müstəqil Azərbaycanın qurucusu, Ümummilli Liderimiz Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur. Bununla bağlı olaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" Sərəncam imzalayıb.

Qeyd olunub ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ***"Heydər Əliyev xatirəsinə ən böyük hörmətimiz onun yoluna sədaqətimizdir. Biz bu yolla gedirik və bu gün Azərbaycanın reallıqları, uğurlar, qələbələr bu yolun təməlində dayanıb"*** fikirləri dahi şəxsiyyətin Azərbaycan dövləti, xalqı qarşısındakı xidmətlərinin aydın mənzərəsini yaradır. Bu gün qalib Azərbaycanın uğurlarından, qarşıdakı dövr üçün müəyyənləşdirilən hədəflərdən bəhs edərkən inamla bildiririk ki, ölkəmizin hər bir nailiyyəti Heydər Əliyev siyasətinin təntənəsidir.

Diqqətə çatdırılıb ki, bu gün bu siyasətin dövlət başçımız tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, idman, təhsil və mədəniyyət müəssisələrində də müasir şərait yaradılıb. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 noyabr tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı Tədbirlər Planı" təsdiq edilib. Müvafiq sənədə əsasən il ərzində həyata keçiriləcək tədbirlərin təqvim planı Azərbaycan Respublikası Prezidentinin Administrasiyası tərəfindən icra hakimiyyətlərinə göndərilib. Təqvim planında il ərzində bir sıra tədbirlərin keçirilməsi öz əksini tapıb.

Vurğulanıb ki, keçirilən tədbirin məqsədi "Heydər Əliyev İli" ilə bağlı Naxçıvan Şəhər Mədəniyyət İdarəsi, Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi və Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsinə il ərzində icra ediləcək tədbirlərlə bağlı məlumat vermək, maarifləndirmə aparmaqdan ibarətdir.

Tədbirdə Naxçıvan Şəhər Mədəniyyət İdarəsinin müdiri Elşən Xəlilov və Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanovun da çıxışları olub.

Sonda Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı aparatının İctimai siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini Orxan Məhərrəmov tərəfindən iştirakçılara keçiriləcək tədbirlərin təqvim planı təqdim olunub, təqvim planı ilə bağlı iştirakçılar məlumatlandırılıb, heyətin təklifləri dinlənilib, müzakirələr aparılıb.

**Gülcamal TAHİROVA**




## 2023-cü il "Heydər Əliyev İli"dir

# Heydər Əliyev irsinin qorunduğu və təbliğ olunduğu məkan

## 18 fevral Heydər Əliyev Muzeyinin yaradıldığı gündür

*2023-cü il mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur.*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 29 sentyabr 2022-ci il tarixdə "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" Sərəncam imzalamışdır. Sərəncamda deyilir: ***"Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir".***

Sərəncamda Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı və dövlətçiliyi qarşısındakı əvəzsiz xidmətləri qeyd olunmaqla yanaşı, həmçinin bildirilir ki, ***"Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir".***

Ümummilli Liderimiz Azərbaycan xalqının tarixində müstəsna rolu olmuş dahi şəxsiyyətlərin xatirəsini həmişə uca tutaraq zamanında onlara həsr edilmiş müxtəlif xatirə kompleksləri və muzeylər yaratmışdır. Bu insanların həyat və fəaliyyəti ilə bağlı nə varsa ehtiramla tədqiq edilərək mənəvi dəyərlər kimi qorunub





saxlanılmış və böyüməkdə olan gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması işində ideoloji vasitə kimi geniş istifadə edilmişdir. ***"Muzeylər mühüm mədəniyyət ocaqlarına, zəhmətkeşlərin, xüsusilə cavan nəslin ideya-siyasi və mənəvi tərbiyəsinin mərkəzinə çevrilmişdir..."*** sözlərinin müəllifi olan görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycanda geniş muzeylər şəbəkəsinin yaradılmasına hər zaman xüsusi diqqət və qayğı göstərmişdir. Onun müdrikliyi, uzaqgörənliyi, ictimai-siyasi fəaliyyəti, bütövlükdə, hər bir Azərbaycan gənci üçün nümunədir və əsl dövlətçilik məktəbidir. Bu gün sadə peşə adamından tutmuş rəhbər işçiyədək hamı Ümummilli Liderin irsini, onun idarəçilik prinsiplərini öyrənməli, onlardan birmənalı şəkildə bəhrələnməlidir. Bu məqsədə nail olmağın ən təsirli yollarından biri Heydər Əliyev Muzeyidir. Ulu Öndərin siyasi irsinin gələcək nəsillərə çatdırılmasında bu muzeyin xidməti əvəzsizdir.

Ümummilli Liderimizin adını daşıyan Heydər Əliyev Muzeyi 18 fevral 1999-cu ildə Naxçıvan şəhərində yaradılmış və 10 may 1999-cu ildə fəaliyyətə başlamışdır.

2005-2006-cı illərdə əsaslı olaraq yenidən qurulan muzeyin 20 dekabr 2006-cı il tarixdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə təntənəli açılış mərasimi keçirilmişdir. Heydər Əliyev Muzeyi dünya tarixinin dahi şəxsiyyətlərindən biri, Azərbaycanın böyük siyasi və dövlət xadimi, dünya azərbaycanlılarının Ümummilli Lideri, müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əlirza oğlu Əliyevin həyatı və ictimai-siyasi fəaliyyətinə dair materialların toplanmasını, komplektləşdirilməsini, mühafizəsini, öyrənilməsini, kütləvi nümayişi və təbliğini həyata keçirən muxtar respublika əhəmiyyətli mədəniyyət və elmi-tədqiqat müəssisəsidir.

Naxçıvan şəhərinin mərkəzində Heydər Əliyev prospektində yerləşən, mühüm siyasi-tarixi əhəmiyyət daşıyan bu mədəniyyət müəssisəsi 577 kvadratmetrlik ekspozisiya zalından və kitabxanadan, 83 kvadratmetrlik muzey fondundan ibarətdir. Yüksək səviyyəli muzey xidməti göstərmək üçün burada kitabxana formalaşdırılmış, Ümummilli Liderimiz haqqında çəkilmiş filmləri nümayiş etdirmək üçün lazımi şərait yaradılmış, kompüter dəstləri quraşdırılmışdır. Həmçinin muzeyin *(www.aliyev-museum.nakhchivan.az)* internet saytı yaradılmışdır.

420 ədəd eksponatla fəaliyyətə başlayan Heydər Əliyev Muzeyi eksponatlarının zənginliyi və orijinallığı ilə digər belə mədəniyyət müəssisələrimizdən fərqlənir. Hazırda muzey fondunda Ümummilli Liderimizin həyat və fəaliyyətini özündə əks etdirən 5413 eksponat toplanmış və bunlardan 3000-dən çoxu ekspozisiyada və kitabxanada nümayiş etdirilir.

Azərbaycan Respublikasında Ümummilli Liderimiz Heydər Əliyevin adını daşıyan çoxsaylı muzey və mərkəz yaradılmışdır. Bunlar içərisində Naxçıvanda fəaliyyət göstərən Heydər Əliyev Muzeyinin xüsusi yeri və əhəmiyyəti vardır. Muzeyi fərqləndirən əsas cəhət odur ki, bu mədəniyyət müəssisəsi Ulu Öndərimizin doğulub boya-başa çatdığı, ilk əmək fəaliyyətinə başladığı, 1969-cu ildən Azərbaycan rəhbəri kimi qurub-yaratdığı, 90-cı ildən isə qoruyub saxladığı və sonrakı illərdə Azərbaycan Respublikasının Prezidenti kimi özünün birbaşa himayəsi nəticəsində günü-gündən inkişaf edib çiçəklənən doğma Naxçıvan torpağında yaradılmışdır. Həm də Ümummilli Liderin sağlığında Azərbaycanda yaradılmış ilk belə muzeydir. Ulu Öndər Heydər Əliyev 1999-cu ilin oktyabr ayında Naxçıvana səfəri zamanı özü bu mədəniyyət müəssisəsini ziyarət etmişdir.

Haqqında bəhs etdiyimiz muzeyi digərlərindən fərqləndirən əsas cəhətlərdən biri də Ulu Öndərin muzeyin yerləşdiyi bölgə ilə əlaqələrinə dair eksponatların burada kifayət qədər çox olması, eksponatların əksəriyyətini təşkil etməsidir. Qədirbilən xalqımız öz dahi oğlunun əziz xatirəsini beləcə əbədiləşdirmişdir.

Heydər Əliyev Muzeyi Ümummilli Liderimizin həyat və fəaliyyət fəlsəfəsinin, elmi-nəzəri irsinin, Azərbaycançılıq ideologiyasının öyrənilməsi, təbliği və gələcək nəsillərə çatdırılması kimi şərəfli bir missiyanı öz üzərinə götürmüş və bu müqəddəs məramı bu gün də uğurla həyata keçirir.

Ulu Öndərimizin şərəfli ömür yolu hər bir Azərbaycan vətəndaşı, xüsusilə gənc nəsil üçün əsl örnək, həyat məktəbidir. Dahi şəxsiyyət Heydər Əliyev yeni, müstəqil Azərbaycanın qurucusudur. Görkəmli siyasi xadim bu quruculuğa ötən əsrin 60-cı illərinin sonundan başlamışdır. Azərbaycan tarixinin otuz ildən artıq bir dövrünü əhatə edən tarixi taleyi, Azərbaycan xalqının ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəliş məhz Ulu Öndərin adı ilə bağlıdır. Rəhbərliyinin birinci dövründə həyata keçirdiyi əzəmətli quruculuq işlərinin çox böyük tarixi əhəmiyyəti bundan ibarətdir ki, xalqımızda milli qürur, milli mənlik şüuru oyandı, azadlıq, müstəqillik duyğuları baş qaldırdı. Bütün bunlar Ulu Öndərin millət və xalq qarşısında tarixi xidmətlərinin cüzi bir hissəsi olmaqla müstəqil dövlətçiliyin daha da möhkəmlənməsinə yönəldilmiş milli konsepsiyanın tərkib hissələri idi. Dahi şəxsiyyətin Azərbaycana rəhbərlik etdiyi bütün dövrlər ərzində daim tərəqqisi üçün çalışdığı, zəngin mədəniyyəti, böyük tarixi keçmişi ilə həmişə qürur duyduğu və gələcək nəsillərin taleyi üçün düşündüyü doğma yurdu Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxarmışdır. Ulu Öndərin həyat və fəaliyyətini, ölkəmizin tarixi taleyində oynadığı misilsiz rolunu və əvəzsiz xidmətlərini özündə ehtiva edən Heydər Əliyev Muzeyi respublikamızda xüsusi yeri olan elmi-tədqiqat müəssisəsidir.

Muzeydə nümayiş etdirilən eksponatlar Ümummilli Liderimizin ictimai-siyasi fəaliyyətini, keçdiyi şərəfli həyat yolunu özündə əks etdirən kitab, qəzet və jurnallardan, 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı və Ali Məclisinin Sədri kimi işləyib hazırladığı, qəbul etdiyi tarixi qərar və sərəncamlardan, imzalanmış protokol və müqavilələrdən, məktub və teleqramlardan, istifadə etdiyi xatirə əşyalarından, şərəfinə toxunmuş xalçalardan, çəkilmiş portretlərdən, tarixi fotolardan və sənədli filmlərdən ibarətdir. Muzeydə zəngin fond materialları, orijinal sənədlər və eksponatların köməyi ilə Ulu Öndərin mənalı həyatı, xalqımızın rifahına, xoş gələcəyinə yönəldilmiş fəaliyyətinin ayrı-ayrı dövrləri, mərhələləri işıqlandırılmış, hər bir tarixi hadisə ilə bağlı Ümummilli Liderimizin öz sözləri, fikirləri, seçilmiş müdrik, nəsihətamiz kəlamları verilmişdir. Dahi şəxsiyyətin muzeylərə sığmayan zəngin ömür yolunu əks etdirən dəyərli ekspozisiyada uşaqlıq və gənclik dövrü, təhsil illəri, ilk əmək fəaliyyətinə başladığı və Dövlət Təhlükəsizlik Komitəsindəki xidməti, 1969-1982-ci illər Azərbaycana rəhbərliyinin birinci dövrü, Moskvada çalışdığı və yaşadığı dövr, Naxçıvana tarixi qayıdışı və muxtar respublikaya rəhbərlik etdiyi illər, müstəqil Azərbaycanın memarı kimi fəaliyyət dövrü öz əksini tapıb. Həqiqət budur ki, 1969-2003-cü illər Azərbaycanın ictimai-siyasi, mədəni tarixi Ümummilli Lider Heydər Əliyev tərəfindən böyük uzaqgörənlik və müdrikliklə yaradılmışdır. 60-cı illərin sonundan Ulu Öndərin başladığı bu siyasi proseslər sonda Azərbaycanın dövlət müstəqilliyinin qazanılması ilə dövlətçilik tarixinə əbədi yazıldı.



Bu gün Heydər Əliyev siyasi irsindən öyrəndiklərimiz bu dahi şəxsiyyətin xalqımız və dövlətimiz qarşısındakı misilsiz xidmətlərinin, sadəcə, bir hissəsidir. Hazırda Azərbaycanda və dünyada nüfuzlu elmi-tədqiqat və siyasət mərkəzlərində, ali təhsil müəssisələrində Heydər Əliyev siyasi irsi araşdırılır, öyrənilir və tədris edilir. Bu əhəmiyyətli təcrübə isə ilk dəfə Naxçıvan sağlığında adını daşıyan muzeydə reallığa çevrildi.

Hər bir Azərbaycan gənci, ziyalısı, vətəndaşı bu siyasi irsi mütləq öyrənməli və dövlətçilik naminə bu irsdən bir təlim, nəzəriyyə kimi istifadə etməlidir. Bu baxımdan muzeydə qorunub saxlanılaraq nümayiş etdirilən 5413 ədəd eksponat Heydər Əliyev dövlətçilik təliminin öyrənilməsində və təbliğində çox mühüm bir missiyanı yetirir.

Heydər Əliyev siyasi irsi həm də mənəviyyat və mədəniyyət salnaməsidir. Bu isə ziyalılarımızın, gənclərimizin, məktəblilərimizin, hərbçilərimizin bu tükənməz mənəvi xəzinəyə marağının daha da artmasına səbəb olur, onlarda Ulu Öndərin simasında doğma Vətənə məhəbbət, tariximizi, mədəniyyətimizi dərindən, hərtərəfli öyrənməyə geniş maraq oyadır və insanlarda mənəvi-əxlaqi, bədii-estetik tərbiyənin, elmi dünyagörüşünün formalaşmasına müsbət təsir göstərir. Muzeydə hər bir eksponat ayrı-ayrılıqda elmi-tədqiqat mövzusudur. Azərbaycanın müasir dövlətçilik tarixi və Ümummilli Liderimizin siyasi irsinin tədqiqatçıları burada elmi axtarışlar üçün dəyərli məlumatlar əldə edirlər. Ulu Öndərimizin heyranlıq doğuracaq dərəcədə coşqun siyasi fəaliyyəti gənclərin daim diqqət mərkəzindədir.

Dünya şöhrətli siyasi xadim Heydər Əliyev bütün ömür yolunda daim ətrafında olan insanları öz qeyri-adi fitri istedadı, yaddaşı, bacarığı, qətiyyəti, tükənməz enerjisi və hadisələri qabaqlamaq bacarığı ilə heyrətləndirib. Bu səbəbdən Ulu Öndər həyatının hər bir dövrü əsl örnək, həyat məktəbidir. Təhsildə qazandığı uğurları ilə bugünkü gəncliyə nümunə olub, diplomatlar üçün əvəzsiz siyasət məktəbi yaradıb. Bu dahi şəxsiyyətin 25 illik xüsusi xidmət yolu hər bir zabit üçün əsl kəşfiyyat, qəhrəmanlıq və vətənpərvərlik məktəbinə çevrilibdir. Azərbaycan xalqının hələ neçə-neçə nəsli bu böyük məktəbdən, zəngin siyasi irsdən ölkəmizin inkişafı, xalqımızın rifahı naminə faydalanacaqdır. Bu gün fəxr edirik ki, Ümummilli Liderimiz bizim müasirimizdir. Bu faktın özü hər bir azərbaycanlı üçün qürur və iftixar mənbəyidir. Heydər Əliyev siyasi irsinin öyrənilməsi bundan sonra da uzun illər, dərin araşdırmalar, çoxillik elmi tədqiqatlar tələb edir.

Bu irsi dərindən öyrənmək və təbliğ etmək məqsədilə Naxçıvan şəhərində fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin müəllim və tələbələrinin iştirakı ilə Heydər Əliyev Muzeyində vaxtaşırı lektoriyalar və açıq dərslər keçilir. Burada Ulu Öndərin siyasi fəaliyyətinin müxtəlif dövrləri tarixi-siyasi və ideoloji baxımdan öyrənilir. Bu zaman muzeydə qorunub saxlanılaraq nümayiş etdirilən eksponatlardan əyani vəsait kimi geniş istifadə edilir. Həmçinin dahi rəhbərin təhsil illərini özündə əks etdirən sənədlər gənc nəslin təlim-tərbiyəsində istifadə edilən əyani vəsait kimi əvəzsiz rol oynayır. Ali və orta məktəblərin tələbə və şagirdlərinin iştirakı ilə muzeydə keçirilən müasir dövr tarix dərslərində Azərbaycanın dövlətçilik tarixinin son yarıməsrlik tarixi dövründə görkəmli siyasi xadim Heydər Əliyevin dövlət müstəqilliyimizin qazanılması yolundakı əvəzsiz xidmətləri geniş tədris olunur. Dərslərdə XX əsr Azərbaycan tarixinin elə məqamlarına toxunulur ki, burada Ümummilli Liderin müstəqil Azərbaycan dövlətini yaratması, iqtisadi-siyasi və ideoloji əsaslarını hazırlanması öz əksini tapır. Çünki Heydər Əliyev siyasi irsi müstəqil Azərbaycanın dövlətçilik tarixidir. Keçilən dərslərdə Ulu Öndərimizin dövlətçilik, Azərbaycançılıq, vətənpərvərlik ideyaları təbliğ edilir, bütün bunlar isə gənclərə xalqa, Vətənə və dövlətə sədaqətli olmağı aşılayır. Gənc nəsil dahi rəhbər Heydər Əliyev şəxsiyyətini, onun siyasi irsini müvəffəqiyyətlə öyrənir və tədqiq edir. Bundan əlavə, tarixi və əlamətdar günlərdə Heydər Əliyev Muzeyi ilə Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələri arasında interaktiv və açıq dərslər keçilir ki, bu da tükənməz mənəvi-siyasi irsin təbliğinə öz töhfəsini verir.

Bu gün Azərbaycan xalqı qürur və iftixar hissi keçirir. Ümummilli Liderimizin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Heydər Əliyev siyasi kursunu layiqincə davam etdirir. Prezident cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət, vətəndaş cəmiyyəti quruculuğu prosesi uğurla davam etdirilir. Bu sahədə qazanılmış nailiyyətlər qürur doğurur. Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirmişdir. Azərbaycanın haqq səsi bütün dünyada eşidilir, onun mövqeyi gündən-günə möhkəmlənir, nüfuzu artır, ona olan maraq dairəsi genişlənir. Azərbaycan yeni uğurlara imza ataraq dünyada iqtisadi artım tempinə görə lider dövlətə çevrilib, region dövlətləri arasında iqtisadi və siyasi güc mərkəzinə sahib olub. Qazanılan bütün uğurlar isə Heydər Əliyev siyasi xəttinə sədaqətin nəticəsidir.

*Heydər Əliyev siyasi irsi hər zaman öyrəniləcək, təbliğ olunacaq və yaşayacaqdır. Bu dahi şəxsiyyət Azərbaycan xalqı üçün əzizdir və əbədidir. Bu irsi qoruyub gələcək nəsillərə çatdırmaq isə Heydər Əliyev Muzeyinin ən ali vəzifəsidir.*

**Ramil ORUCƏLİYEV**
*Heydər Əliyev Muzeyinin direktoru,*
*Azərbaycan Respublikasının*
*Əməkdar mədəniyyət işçisi*

## Kreditlərin faiz dərəcələrinin aşağı salınması nəzərdə tutulur

Fevralın 17-də Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Tapdıq Əliyev Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti, eyni zamanda "Aqrarkredit" QSC-nin İdarə Heyətinin sədri Məmməd Musayev ilə Naxçıvanda kənd təsərrüfatı məhsulu istehsalının artırılması, bu sahədə yeni təsərrüfatların yaradılması, mövcud fermer təsərrüfatlarının fəaliyyətinin genişləndirilməsi məqsədilə müzakirələr aparıb.

Tapdıq Əliyev aqrar sahənin inkişafı üçün fermer və kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan sahibkarların güzəştli kreditlərə çıxış imkanlarının artırılmasının qarşıda duran vəzifələrdən biri olduğunu, eləcə də sağlam bank və kredit təşkilatlarının kənd təsərrüfatı kreditlərinin verilməsinə cəlb etməyin vacibliyini vurğulayıb.

Həmçinin "Aqrarkredit" QSC-nin Naxçıvan filialı tərəfindən verilən kreditlərin faiz dərəcələrinin aşağı salınması məsələsinə də toxunulub. Bildirilib ki, bu günə qədər filial tərəfindən verilən biznes və ticarət kreditləri 18-24 faiz dərəcəsi ilə verilirdisə, artıq 5000 manata qədər verilən kreditlər 10 faiz, 5000 manatdan yuxarı məbləğlər üçün verilən kreditlər isə 12 faizlə hesablanacaq. Eyni zamanda sahibkarlara dəstək məqsədilə cari ilin mart ayından etibarən Sahibkarlığın İnkişafı Fondunun vəsaiti hesabına kreditlərin 5 faizlə verilməsinə başlanacağı bildirilib.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin rəsmi internet saytı "GOV.AZ" zonasına köçürülüb



Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti tərəfindən Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin rəsmi internet səhifəsi *AzStateNet* şəbəkəsinə köçürülüb.

*nminenergy.gov.az* domen adı ilə fəaliyyət göstərən internet saytı funksionallıq və dizayn cəhətdən Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mühəndis-proqramçıları tərəfindən müasir proqramlaşdırma dillərindən istifadə edilərək hazırlanıb. İstifadəçi rahatlığını təmin etmək üçün yeni sayt müasir üslubda tərtib edilərək hər bir istifadəçinin kompüterinin, istər planşetinin və ya mobil telefonunun ekran ölçülərinə (responsive dizayn) uyğun hazırlanıb.

Yenilənmiş internet səhifəsinin SSL (təhlükəsizlik) sertifikatı ilə təmin olunması, optimizasiyası (SEO-Search Engine Optimization) axtarış sistemlərinə uyğunlaşdırılması, "Google" axtarış sistemində qeydiyyatdan keçirilməsi və axtarış sistemlərində ön sıralarda tapılması üçün nazirliyin mühəndisləri tərəfindən zəruri texniki tədbirlər həyata keçirilib. Həmçinin saytın domen ünvanı da müvafiq qaydada yenilənməklə domenə bağlı e-poçt adresləri ilə təmin ediləcəkdir.

Qeyd edək ki, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti tərəfindən muxtar respublikada digər dövlət qurumlarının da internet səhifələrinin "GOV.AZ" zonasında qeydiyyatdan keçirilməsi və təhlükəsizliyinin gücləndirilməsi ilə bağlı müvafiq tədbirlər davam etdirilir.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## 31 illik tarixə malik Qaradağlı faciəsi tarixi həqiqətlərin və faktların dili ilə

*Azərbaycanın ən yeni tarixinə düşmüş qanlı hadisələrdən biri də Qaradağlı soyqırımıdır. 1992-ci il fevralın 17-18-də törədilmiş Qaradağlı faciəsi Xocalı soyqırımınadək törədilən ən qanlı faciələrdəndir.*

Qarabağın ən qədim yaşayış məskənlərindən biri olan Qaradağlı inzibati ərazi bölgüsünə görə Xocavənd rayonunun kəndidir. Bu kənd füsunkar təbiəti, yamyaşıl yamacları, uzunömürlü ağacları, şəfalı bulaqları ilə göz oxşayırdı. Kəndin əhalisi daha çox heyvandarlıqla, əkin-biçinlə, üzümçülüklə məşğul olurdu. El arasında Qaradağlıya "cənnətməkan" da deyirmişlər. Lakin Qarabağda vəziyyət pisləşəndə bu kəndin də qara günləri başlayır. Bir neçə dəfə erməni hərbi birləşmələrinin hücumlarının qarşısı alınsa da, onlar hər gün yeni silahlarla hücuma keçir, çobanları öldürür, mal-qara sürülərini aparırdılar. 1992-ci il fevralın 17-də törədilən Qaradağlı faciəsi də, əslində, bir günün, bir gecənin hadisəsi deyil, iki yüz ilə yaxın müddətdə erməni millətçiləri tərəfindən azərbaycanlılara qarşı davamlı olaraq həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasətinin davamı idi.

AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Qafqaz tarixi şöbəsinin müdiri, tarix elmləri doktoru, dosent Emin Şıxəliyev Qaradağda baş verən soyqırımı hadisəsinin başvermə səbəbləri barədə fikirlərini bölüşərək dedi ki, bu cinayət 1992-ci il fevralın 17-də Xocavənd rayonunun Qaradağlı kəndində Ermənistan silahlı qüvvələri və Rusiyanın 366-cı alayı tərəfindən törədilən soyqırımıdır. Qaradağlı Xocavənd rayon mərkəzindən 13 kilometr qərbdə, Xocavənd-Xankəndi avtomobil yolunun kənarında strateji bir mövqedə yerləşirdi. Malıbəyli və Quşçuların işğal edilməsindən sonra növbəti hədəf Qaradağlı kəndi idi. Erməni hərbi qüvvələrinin manevrlərinə mane olan kəndin ələ keçirilməsi ermənilər üçün həyati məsələ idi. Bu baxımdan Qaradağlının ələ keçirilməsi şərt idi. Qaradağlı soyqırımını "ikinci Xocalı" da adlandırırlar.

Həmsöhbətim tarixi faktları xatırladaraq deyir ki, 1992-ci il fevralın 14-də erməni quldurları əlaqəsi hər tərəfdən kəsilmiş, köməksiz qalan Qaradağlı kəndinə hücuma keçdilər. Kənddə olan 104 sakin və 14 əsgər sonuncu gülləyə qədər 4 gün düşmənlə mübarizə apardı. Döyüşlərdə biri qadın olmaqla, 14 nəfər həlak oldu. Silah-sursatı tükənən soydaşlarımız sonda ermənilər tərəfindən əsir və girov götürüldülər, onların növbəti məşəqqətləri başlandı.

Kəndin Bəylik bağı adlanan yerində 23 sakin erməni cəlladları tərəfindən güllələndi, əksəriyyəti yaralı halda diri-diri silos quyusunda basdırıldı. Sakinlərin bir hissəsi Qaradağlı-Xankəndi yolu üzərində yerləşən erməni kəndlərində maşınlardan düşürülərək güllələndi. İki nəfər Zəki bulağında, 2 nəfər Cəmiyyət kəndində öldürüldü. Girovluqda olan 8 nəfər kənd sakininə ermənilər əzab və işgəncələr verərək onları amansızlıqla qətlə yetirdilər. Dörd nəfər müxtəlif dövrlərdə şəhid oldu. Beş nəfərin taleyi bu günə qədər məlum deyil.



Beləliklə, erməni işğalçılarına qarşı 4 il qəhrəmanlıqla mübarizə aparan Qaradağlı kəndi 1992-ci il fevralın 17-də işğal edilərək yandırılıb, dinc əhaliyə qarşı soyqırımı həyata keçirilib. İşğal zamanı 118 nəfər əsir götürülüb, 33 nəfər güllələnib. Erməni cəlladlar öldürülənləri və yaralı halda olanları bir yerdə təsərrüfat quyusuna tökərək üzərini torpaqlayıblar. Ümumilikdə, əsir və girov götürülənlərdən 68 nəfəri öldürülüb, 50 nəfəri böyük çətinliklərlə azad edilib. Girov götürülənlərdən 10 nəfəri qadın, 2 nəfəri məktəbli olub. Azad olunanların 5 nəfəri qadın olmaqla, 18 nəfər aldıqları sağalmaz yaralardan sonralar vəfat edib.

Erməni vandalizmindən bəhs edən tarixçi alim deyir ki, kənd sakinlərindən 104 nəfəri girov götürüldükdən sonra qoca və cavanlar ayrı-ayrı maşınlara doldurularaq yolboyu kəndlərdə düşürülmüş və ən qəddar üsullarla qətlə yetirilmişlər. Hətta kənd sakinlərinə də müraciət olunmuşdur ki, kim azərbaycanlı öldürmək istəyirsə, gəlib istədiyi girovu öldürə bilər...

Müsahibim onu da vurğulayır ki, əsirlikdə saxlanılanlara qarşı vəhşi, vandalizm hərəkətləri ilə davranılması, insanların başlarının kəsilməsi, diri-diri basdırılması, dişlərinin çəkilməsi, ac-susuz saxlanmaları, döyülərək öldürülmələri insanlığa qarşı törədilmiş cinayət hadisəsi idi. Ermənistanın dövlət səviyyəsində həyata keçirdiyi soyqırımı cinayəti nəticəsində Qaradağlı kəndində iki ailənin hər birindən 4 nəfər qətlə yetirilib, 43 ailə başçısını itirib, 146 uşaq yetim qalıb. Qaradağlıya Ermənistan silahlı qüvvələrinin həmlələri zamanı qətlə yetirilənlərdən 10-u qadın, 8-i məktəbyaşlı uşaq olub. Kənddə 91 nəfər, sakinlərin hər 10 nəfərindən biri qətlə yetirilib. İşğal nəticəsində kənddə 200 ev, 1 mədəniyyət evi, 320 yerlik orta məktəb binası, 25 çarpayılıq xəstəxana binası və digər obyektlər, azərbaycanlılara məxsus tarixi, dini, mədəni abidələr və qəbiristanlıq dağıdılıb. Kəndin 800 nəfərə yaxın sakini məcburi köçkün düşüb.

Emin müəllim bildirdi ki, əldə olan faktlar onu deməyə imkan verir ki, Azərbaycan tarixinin ən ağrılı və acılı səhifələrindən olan Qaradağlı, Xocalı, Ağdaban, Ballıqaya və digər faciələr mübahisəsiz bir soyqırımıdır. Günümüzdə hər hansı bir faciənin soyqırımı olaraq tərif edilməsi üçün saylara diqqət çəkilməkdə və əgər yüz minlərlə insan məhv edilərsə, bunun soyqırımı olaraq xarakterizə oluna biləcəyi düşünülməkdədir. Belə bir vəziyyət bir gecədə yüzlərlə insanın qətl edildiyi faciələrin soyqırımı olaraq tanınması şübhə oyatmamalıdır. Çünki 9 dekabr 1948-ci ildə BMT tərəfindən qəbul edilən "Soyqırımı Cinayətinin Qarşısının Alınması və Cəzalandırılması Sözləşməsi"ndəki tərifdə müəyyənedici ünsür say deyil, millət, din, soy, ya da irq kimi xüsusiyyətlər üzərində qurulan bir qrupun sistematik və məqsədli olaraq tamamilə, ya da qismən məhv edilməsi planıdır. Ermənilərin Qaradağlıda da törətdikləri cinayətlər BMT tərəfindən qəbul edilən bu sözləşmənin ikinci maddəsi ilə uyğunluq təşkil edir. Bu maddənin bəndlərində göstərilir:

1. Əlaqədar qrup üzvlərinin (milli, etnik və dini olaraq) öldürülməsi;

2. Əlaqədar qrup üzvlərinin ruhi və fiziki səhhətlərinə zərər verilməsi;

3. Əlaqədar qrup üzvlərinin fiziki varlıqlarının ortadan qaldırılması.

Məhz bu baxımdan ermənilərin Qaradağlıda törətdikləri vəhşiliklər insanların (qrupun) planlı və sistematik olaraq məhv edilməsinə yönəlik məqsəd və cinayətlərin təzahürləridir. Ümumiyyətlə, Xocalı, Qaradağlı, Bağanıs-Ayrım, Meşəli, Kərkicahan soyqırımları, əsir və girov götürülmüş şəxslərə qarşı işgəncə, terrorçuluq cinayətləri və digər epizodlar müvafiq olaraq Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 103 (Soyqırımı), 107 (Əhalini deportasiya etmə və ya məcburi köçürmə), 113 (İşgəncə), 115 (Müharibə qanunlarını və adətlərini pozma), 116 (Silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 120 (Qəsdən adam öldürmə), 214 (Terrorçuluq) və digər maddələrində nəzərdə tutulan cinayətlərdir.

27 sentyabr 2020-ci ildə başlayaraq "Dəmir yumruq" əməliyyatı adı altında aparılan şanlı Vətən müharibəsində Azərbaycan Ordusu dastan yazdı, Ermənistan ordusu qarşısında açıq üstünlük nümayiş etdirərək onu məhv etdi və işğal altındakı torpaqlarını qurtardı. Amma bir məsələni, xüsusilə qeyd etməyi vacib hesab edirik. Düzdür, Azərbaycan Ermənistan qarşısında tarixi qələbə qazanıb, amma, təəssüf ki, "erməni məsələsi" bitməyib. Böyük güclərin "böyük siyasət" reallığı və onların ərsəyə gətirdiyi problem var olduğu müddət içərisində "erməni məsələsi" də öz aktuallığını qoruyacaqdır. Azərbaycan qalib dövlət və qalib xalq olsa da, keçmişdə baş verənləri əsla unutmamalı, xalqımıza qarşı törədilən soyqırımı cinayətləri yaddaşlarda daim tutulmalıdır. Çünki bunlar bizim qan yaddaşımızdır. Bu mənada, Qaradağlı faciəsinin dünya ictimaiyyətinə çatdırılması məqsədilə də bir sıra tədbirlər görülmüş, Xocavənd Rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə Azərbaycan, rus və ingilis dillərində "Soyqırımı: Qaradağlı", Azərbaycan, rus, ingilis və fransız dillərində "Soyqırımı Qaradağlı: davam edir..." və "Qaradağlı, mübarizə" sənədli filmləri çəkilib. Ermənistan silahlı qüvvələrinin Qaradağlı kəndində törətdiyi soyqırımı ilə bağlı *garadaghli.org* internet saytı və "Qaradağlı Soyqırımı şahidlərin dili ilə" kitabı hazırlanıb. Yeni Qaradağlı, Yeni Xocavənd qəsəbələrində və Nərgiztəpə ərazisində ucaldılan abidə kompleksləri isə şəhidlərin xatirəsinə əbədi ehtiram nişanəsidir. Azərbaycanın Vətən müharibəsindəki Şanlı Zəfəri isə tarixboyu erməni vandalizmi qurbanları olmuş bütün soydaşlarımızın qisasının alınması, tarixi torpaqlarımızın qaytarılması istiqamətində yeni bir mərhələnin başlanğıcı deməkdir.

**✍ Nail ƏSGƏROV**

## Uğurlu mikrocərrahiyyə əməliyyatı keçirilib



"Naxçıvan Diaqnostika Müalicə Mərkəzi" publik hüquqi şəxsin mütəxəssis həkimləri tərəfindən teztez riskli və uğurlu əməliyyatlar icra olunur. Növbəti belə əməliyyatlardan biri də muxtar respublikada ilk dəfə olaraq amputasiya olunmuş baş barmağın mikrocərrahiyyə üsulu ilə replantasiyası (hər hansı bir nəfərin bədəninin tamamilə əlaqəsi kəsilmiş üzvünün yenidən yerinə cərrahi üsulla tikilməsi) əməliyyatının həyata keçirilməsi olub.

Müalicə mərkəzinə qopmuş baş barmaq ucunun dəri dikişi olunmuş və amputasiyası məsləhət görülmüş xəstə gətirilib. Barmağın amputasiya olunmadan yenidən bərpa olunması şikayəti ilə müraciət edən 35 yaşlı kişi pasiyentdə sol əl 1-ci barmaqdan balta ilə iki səviyyədən kəsilərək yaralanma aşkar edilib.

Ortopedik müayinə zamanı mikrocərrahiyyə üsulu ilə xəstənin barmağının təkrar birləşdirilməsi prosesinə qərar verilib. Əməliyyat təcrübəli travmatoloq-ortoped Anar Ələkbərovun rəhbərliyi ilə icra olunub. 5 saat çəkən əməliyyat nəticəsində xəstənin qopan barmağı yenidən tikilərək bərpa edilib.

Müvəffəqiyyətlə icra edilən əməliyyat sonrası xəstə ambulator müalicəyə buraxılıb.

Sevindirici haldır ki, replantasiyası olmuş barmaqda uyğun qan dövranı və funksiya əldə edilib. Hazırda xəstə nəzarətdə saxlanılır və sağalma dövrü davam etməkdədir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# Soyqırımı ümumbəşəri cinayətdir

*Genosid, yaxud soyqırımı – etnik, irqi, dini və ya milli qrupun düşünülmüş və sistematik şəkildə tam və ya qismən məhv edilməsidir. Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən 9 dekabr 1948-ci il tarixdə qəbul olunmuş "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyanın 2-ci maddəsində qeyd olunur ki, bu Konvensiyada "soyqırımı" dedikdə, hər hansı milli, etnik, irqi, yaxud dini qrupu tam və ya qismən məhv etmək məqsədilə törədilən aşağıdakı hərəkətlər başa düşülür: bu cür qrupun üzvlərinin öldürülməsi; bu cür qrupun üzvlərinə ağır bədən xəsarəti, yaxud əqli xətər yetirilməsi; hər hansı qrup üçün qəsdən onun tam, yaxud qismən fiziki məhvini nəzərdə tutan həyat şəraiti yaradılması; bu cür qrupda doğumun qarşısını almağa yönəldilmiş tədbirlərin görülməsi; uşaqların zorla bir insan qrupundan alınıb başqasına verilməsi. Konvensiyanın preambulasında soyqırım yalnız "beynəlxalq hüquq üzrə, BMT-nin mahiyyətinə və məqsədlərinə zidd, sivil dünya tərəfindən cinayət hesab olunan cinayət" hesab edilmir, həmçinin "bütün tarixi dövrlərdə soyqırımı bəşəriyyətin amansız böyük itkisi" sayılır.*

### *Bəşəriyyət əleyhinə törədilmiş ən ağır cinayət*

Beynəlxalq hüquq normalarına görə, soyqırımı törətmiş şəxslərin cinayət mühakiməsi və cəzalandırılması labüddür. Beynəlxalq hüquq soyqırımı cinayətinin anlayışını müəyyən etməklə yanaşı, həmin cinayəti törətmiş şəxslərin məsuliyyətini də müəyyənləşdirir. Belə ki, Soyqırımı Cinayətinin Qarşısının Alınması və Cəzalandırılması haqqında Konvensiyanın 5-ci maddəsinə əsasən iştirakçı dövlətlər soyqırımı cinayətini törətməkdə təqsirli olan şəxslərin cəzalandırılması üçün təsirli tədbir görməlidirlər. Konvensiyanın 6-cı maddəsinə görə, həmin şəxslər dövlətin ərazisində səlahiyyətli məhkəmələrdə mühakimə olunmayıbsa, beynəlxalq məhkəmə tərəfindən mühakimə edilməlidir.

1944-cü ilə qədər "genosid" anlayışı işlədilməmişdi. Bu xüsusi termin hər hansı insan qrupuna qarşı onların məhv edilməsi məqsədilə törədilən cinayət əməllərini ifadə edir. İlk dəfə 1944-cü ildə yəhudi mənşəli polşalı hüquqşünas Rafael Lemkin Avropa yəhudilərinin faşistlər tərəfindən kütləvi məhv edilməsi siyasətini ifadə edən yeni termin işlətdi. O, yunan dilində genos – "nəsil, kök, soy" sözü ilə latın dilindən caedo – "öldürürəm" sözlərinin birləşməsindən "genosid" (soyqırımı) terminini təklif etdi. Bu termini Lemkin belə əsaslandırırdı ki, soyqırımı, müəyyən insan qruplarının mövcudluğunun vacib əsaslarını məhv etməyə yönəlmiş, müxtəlif cinayətkar hərəkətlərin koordinasiya olunmuş, planlı şəkildə həyata keçirilməsidir. Bir ildən sonra Nürnberq beynəlxalq hərbi tribunalı faşist liderlərini "bəşəriyyət əleyhinə cinayətlərdə" ittiham etdi.

Xalqımıza qarşı erməni millətçilərinin törətdiyi soyqırımı siyasətinin tarixi XIX əsrin əvvəllərindən başlayır. Ermənilərin fasilələrlə, lakin düşünülmüş və planlı şəkildə davam edən soyqırımı siyasəti nəticəsində minlərlə günahsız soydaşımız vəhşicəsinə qətlə yetirilmiş, evləri yandırılmış, əmlakları qarət olunmuş, ölkəmizin tarixi ərazisində erməni dövləti qurmaq məqsədilə Azərbaycanın müxtəlif bölgələrində soydaşlarımıza qarşı dəhşətli qırğınlar törətmişdilər.

### *1905-1907-ci illər kütləvi qırğını*

"Böyük Ermənistan" xülyası ilə yaşayan ermənilərin XX əsrdə azərbaycanlılara qarşı ilk kütləvi qırğını 1905-1907-ci illərə təsadüf edir. Həmin vaxt Bakıda, Naxçıvanda, Zəngəzurda, İrəvanda və digər tarixi Azərbaycan torpaqlarında ermənilər tərəfindən minlərlə azərbaycanlı amansızcasına qətlə yetirilib.

1917-ci il oktyabr çevrilişindən sonra ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa başlamışdılar. 1918-ci ilin martında Stepan Şaumyan Qafqazın fövqəladə komissarı təyin edildi və Bakıya göndərildi. Həmin vaxtdan "Əks-inqilabi ünsürlərlə mübarizə" şüarı altında maskalanaraq daşnak-bolşevik Şaumyanın rəhbərliyi ilə Bakı Kommunası Bakı şəhərini azərbaycanlılardan təmizləmək kimi mənfur bir planı həyata keçirməyə qalxmışdır.

### *1918-ci ilin mart hadisələri*

1918-ci ilin 30 mart – 3 aprel tarixlərində Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, eləcə də Qarabağ, Naxçıvan, Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Salyan, Zəngəzur və digər ərazilərdə Bakı Soveti qoşunlarının və daşnak erməni silahlı dəstələrinin azərbaycanlılara qarşı soyqırımı nəticəsində rəsmi mənbələrə əsasən on minlərlə soydaşımız məhz etnik və dini mənsubiyyətinə görə qətlə yetirilib, yaşayış məntəqələri, tarixi abidələr, məscid və qəbiristanlıqlar viran edilib.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə



xüsusi diqqət yetirmişdir. Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədilə Fövqəladə İstintaq Komissiyasının yaradılması haqqında qərar qəbul etdi. Komissiya mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırdı. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradıldı. 1919 və 1920-ci ilin mart ayının 31-i iki dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən Ümummilli Matəm Günü kimi qeyd edilmişdir. Əslində bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin Xalq Cümhuriyyətinin süqutundan sonra bu proses dayandırılmış, baş verənlərin sona qədər tədqiq edilməsinin və ona müvafiq siyasi-hüquqi qiymət verilməsinin qarşısı alınmışdır.

Zaqafqaziyanın sovetləşməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra digər torpaqlarını Ermənistan SSR-in ərazisi elan etdilər. Sonrakı dövrdə bu ərazilərdəki azərbaycanlıların deportasiya edilməsi siyasətini daha da genişləndirmək məqsədilə yeni vasitələrə əl atdılar. Bunun üçün onlar SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" xüsusi qərarına və 1948-1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi surətdə deportasiyasına dövlət səviyyəsində nail oldular.

### *Əsrin faciəsi – Xocalı soyqırımı*

Tarixin müxtəlif dönəmlərində ermənilər tərəfindən soyqırımına məruz qalan Azərbaycan xalqı növbəti belə faciə ilə 1992-ci ilin qanlı qışında Xocalıda üzləşdi. Xalqımıza qarşı görünməmiş qətliam baş verdi. 1992-ci il fevralın 25-də saat 22 radələrində Ermənistandan Azərbaycan Respublikası ərazisinə keçirilən silahlı qüvvələr, habelə Dağlıq Qarabağda təşkil olunan qanunsuz silahlı dəstələr keçmiş SSRİ Müdafiə Nazirliyinin 366-cı motoatıcı alayının komandir heyəti və hərbi texnikası ilə birgə Xocalı şəhərinə hücuma keçdilər. Azərbaycanın 7 mindən çox əhalisi olan qədim Xocalı şəhərində ermənilər xüsusi amansızlıqla və düşünülmüş şəkildə qırğın törətdi.

Xocalı soyqırımı və işğalçı Ermənistanın torpaqlarımızda törətdiyi digər faciələr nəticəsində İnsan hüquqları haqqında Ümumi Bəyannamədə, İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasında və digər beynəlxalq aktlarda təsbit olunmuş hüquq və azadlıqlar, o cümlədən insanların yaşamaq hüququ kobud şəkildə, kütləvi surətdə pozulmuşdur. 1992-ci ilin fevralında ermənilər Xocalı şəhərinin əhalisinə misli görünməyən divan tutdu. Tariximizə Xocalı soyqırımı kimi həkk olunan bu qanlı faciə minlərlə azərbaycanlının məhv edilməsi, əsir alınması, şəhərin yerləyeksan edilməsi ilə qurtardı. Xocalı soyqırımı xarakter etibarı ilə beynəlxalq cinayət kateqoriyasına aiddir. Bu kateqoriyadan olan cinayətlərin əsas tərkibləri İkinci Dünya müharibəsindən sonra yaradılmış beynəlxalq hərbi tribunalların (Nürnberq, Tokio) nizamnaməsində istifadə olunmuş, sonradan həmin cinayət tərkibləri keçmiş Yuqoslaviya və Ruanda beynəlxalq cinayət tribunallarının nizamnamələrində, habelə Beynəlxalq Cinayət Məhkəməsinin Statusunda təkmilləşdirilməklə bir daha təsdiqini tapmışdır. Xocalı sakinlərinin kütləvi şəkildə qətlə yetirilməsi ermənilərin azərbaycanlılara qarşı soyqırımı niyyətini sübuta yetirir. Xocalıda baş verən hadisələri bütün dünya ictimaiyyəti ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımı kimi tanımalıdır. Çünki soyqırımının beynəlxalq hüquqda tövsifi Xocalı faciəsində tam əks olunur.

### *Ağdaban soyqırımı*

Ağdaban soyqırımı erməni silahlı birləşmələri tərəfindən törədilmiş qətliamın ən qanlı səhifələrindən biridir. Ağdaban kəndi Kəlbəcər rayonunda rayon mərkəzindən 36 kilometr şimal-şərqdə yerləşir. 1992-ci il aprelin 7-dən 8-nə keçən gecə Ermənistan silahlı birləşmələri Dağlıq Qarabağdakı separatçı erməni quldur dəstələrinin köməyilə Ağdaban və Çayqovuşan kəndlərinə hücum edib dünyada görülməmiş ən qəddar üsullarla dinc əhalini qətlə yetirərək soyqırımı aktı törətdilər. Ağdaban faciəsi törədilmə spesifikasına və xarakterinə görə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən 9 dekabr 1948-ci il tarixdə qəbul olunmuş "Soyqırımı cinayətinin qarşısının alınması və ona görə cəzalandırma haqqında" Konvensiyanın müddəalarına tam uyğundur. Ona görə də bu faciə beynəlxalq hüquq əsasında soyqırımı cinayəti aktı kimi qiymətləndirilməli və Ağdaban kəndinin dinc əhalisinə qarşı törədilən bu qırğın soyqırımı cinayəti kimi dünya ictimaiyyəti tərəfindən tanınmalıdır.

### *Növbəti qanlı faciə – Qaradağlı soyqırımı*

Qaradağlı soyqırımı erməni silahlı birləşmələri tərəfindən 1992-ci il fevralın 17-də törədildi. Qaradağlı kəndi Xocavənd rayonunun, eləcə də Dağlıq Qarabağın ən qədim yaşayış məntəqələrindən biri olaraq rayon mərkəzindən 13 kilometr qərbdə, Xocavənd-Xankəndi avtomobil yolunun üzərində, dağətəyi ərazidə yerləşir. Tarixboyu türklərə qarşı soyqırımı həyata keçirməkdən çəkinməyən ermənilər XX əsrin sonlarında bütün bəşəriyyətə və insanlığa ləkə olan növbəti cinayəti – Qaradağlı soyqırımını həyata keçirdilər. Qaradağlı faciəsi ermənilərin xəstə təfəkküründən doğan niyyətlərinə çatmaq üçün Azərbaycan xalqına qarşı həyata keçirdikləri soyqırımı siyasətinin ən qanlı səhifələrindən biridir.

### *Xalqımıza qarşı törədilən soyqırımına Ümummilli Liderin təşəbbüsü ilə hüquqi qiymət verildi*

Xalqımıza qarşı 1905-ci ildən üzü bəri törədilən sistematik soyqırımlara yalnız 1998-ci il martın 26-da Ümummilli Lider Heydər Əliyev tərəfindən imzalanmış "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanda həmin dəhşətli hadisələrə adekvat siyasi qiymət verilmiş və 31 mart "Azərbaycanlıların Soyqırımı Günü" elan edilmişdir. Bu fərman XX əsrdə azərbaycanlılara qarşı törədilmiş soyqırımı barədə müasir və gələcək nəsillərdə möhkəm milli yaddaşın formalaşdırılması, dünyada bu hadisələrə düzgün siyasi və hüquqi qiymət verilməsi, belə halların qarşısının alınması və bir daha təkrarlanmaması üçün proqram mahiyyətli sənəd oldu.

1998-ci ildə Azərbaycanın Milli Məclisi Birləşmiş Millətlər Təşkilatına, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına, Avropa Şurasına, MDB ölkələrinə və digər beynəlxalq təşkilatlara, ölkələrin parlament və hökumətlərinə müraciət edərək azərbaycanlılara qarşı törədilmiş soyqırımı kimi hallarla dünyanın hər bir yerində amansız mübarizə aparmaq üçün səylərin birləşdirilməsinə çağırmışdır.

Son illər bu sahədə aparılmış araşdırmalar sayəsində çoxlu sayda yeni faktlar və sənədlər toplanılıb. 2009-cu ildə Nazirlər Kabinetinin Sərəncamı ilə "Quba rayonunda kütləvi qətl qurbanlarının xatirəsinin əbədiləşdirilməsinə dair Tədbirlər Planı" təsdiq edilib, aşkar olunmuş kütləvi məzarlığın yerləşdiyi ərazidə monumental xatirə kompleksinin ucaldılması və abadlıq işlərinin aparılması qərara alınıb. Ərazidə yaradılmış Quba Soyqırımı Memorial Kompleksinin 2013-cü il sentyabrın 18-də açılışı olub.

Azərbaycan xalqının hər il qeyd etdiyi "Azərbaycanlıların Soyqırımı Günü" həmin məqsədlərə və dünya ictimaiyyətinin diqqətinin bu gün də davam edən şovinizm, separatçılıq hallarına cəlb edilməsinə xidmət edir. Yaddan çıxarmaq olmaz ki, biz hamımız – dünyanın bütün xalqları bəşəriyyətin gələcək əmin-amanlığına məsuliyyət daşıyır.

Soyqırımı bəşəriyyət əleyhinə ən ağır cinayətdir. Bu anlayış Azərbaycan Respublikası Cinayət Məcəlləsinin "Sülh və insanlıq əleyhinə cinayətlər" adlanan 7-ci bölməsində öz əksini tapıb. Lakin ürəkağrısı və böyük təəssüf hissi ilə qeyd etmək olar ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 7-ci bölməsində göstərilən bütün cinayətlər Azərbaycan ərazisində və Azərbaycan vətəndaşlarına qarşı törədilib və bu günə kimi bu amansız cinayətləri törədən şəxslərdən heç kimi mühakimə etmək mümkün olmayıb.

2008-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət" beynəlxalq kampaniyası başlanmışdır. Kampaniya Xocalı soyqırımı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi səbəbləri və nəticələri ilə bağlı beynəlxalq maarifləndirmənin artırılması məqsədini daşıyır. Kampaniyanın fəaliyyəti, həmçinin Xocalı soyqırımı qurbanlarının xatirəsinin yad edilməsi, sağ qalmış ailələrə dəstək göstərilməsi, bu hadisələrin yaddaşlarda yaşaması, xüsusən də gənc nəsil tərəfindən unudulmamasına yönəlmişdir.

Xocalı soyqırımının törədilməsindən ötən dövr ərzində Azərbaycan dövlətinin xarici siyasətində əsas prioritet istiqamətlərdən biri bu soyqırımının beynəlxalq aləmdə tanıdılması, eləcə də bu soyqırımına obyektiv qiymət verilməsi istiqamətində davamlı işlərin aparılması olub. Son 30 il ərzində dünyanın bir neçə ölkəsi bu soyqırımını rəsmən tanıdığını bəyan edib.

Xocalı soyqırımını XX əsrin ən böyük cinayəti adlandıran ölkə Prezidenti cənab İlham Əliyev demişdir: ***"...bilirsiniz ki, ermənilər xaricdəki imkanlarından istifadə edərək, dünya birliyinə Xocalı faciəsi haqqında təhrif edilmiş məlumatlar çatdırmağa cəhd etmişlər. Əfsuslar olsun ki, uzun illər ərzində buna müvəffəq olmuşlar... bizim siyasətimiz, xüsusilə xaricdəki fəaliyyətimiz, Xocalı haqqında həqiqətləri dünya birliyinə çatdırmağımız bu vəziyyəti, demək olar ki, tamamilə dəyişdirdi... Biz bütün ölkələrdə kampaniyalar keçiririk, həm səfirliklər, həm də Heydər Əliyev Fondu vasitəsilə. Bildiyiniz kimi fond bu məsələ ilə çox fəal məşğul olur. Bizim təşəbbüsümüzlə yaradılmış İslam Konfransı Təşkilatının Gənclər Forumu da bu məsələ ilə bağlı fəal işləyir... Xocalı soyqırımı ermənilərin vəhşiliyini göstərmişdir... Mən əminəm ki, gün gələcək Xocalı faciəsini törədən, dinc əhaliyə qarşı qəddarlıq edən, dinc əhalini məhv edən erməni cinayətkarları məhkəmə qarşısında cavab verəcəklər. O gün gələcəkdir".***

**Faiq SƏFƏROV**
*Naxçıvan Muxtar Respublikası Prokurorluğunun şöbə rəisi, baş ədliyyə müşaviri*

*Xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən əsası qoyulan və ölkə vətəndaşının rifahına yönələn sosial siyasət modeli bu gün Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Cəmiyyətin bütün həssas təbəqələri, xüsusən şəhid ailələri, müharibə iştirakçıları yüksək diqqət və qayğı ilə əhatə olunur. Bu kateqoriyadan olan şəxslər üçün nəzərdə tutulan təqaüd və müavinətlərin məbləği mütəmadi artırılır, onların iştirakı ilə sosial dəstək tədbirlərinin həcmi genişləndirilir.*

# Şəhid ailələri və qazilərin sosial rifahı günü-gündən daha da yaxşılaşdırılır



Zəfər dövrünü yaşayan qalib Azərbaycanda müharibədən sonra dövlət başçısının göstərişi ilə şəhidlərimizin ailə üzvləri və müharibə iştirakçıları ilə bağlı çox geniş tədbirləri əhatə edən sosial dəstək paketinin icrasına başlanılıb. Bu dəstək paketi həmin insanların sosial təminat hüquqlarının operativ reallaşdırılması, onlara qanunvericilikdə nəzərdə tutulan sosial ödənişlərin e-sistemlər üzərindən proaktiv təyinatı, onların sosial-psixoloji dəstəklə, reabilitasiya xidmətləri və vasitələri, birdəfəlik maddi yardımla təminatı, mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması, məşğulluq məsələlərinin operativ həlli, onlar üçün kiçik biznes imkanlarının yaradılması və digər dəstək istiqamətlərini əhatə edir. Ölkə başçısının müvafiq



tapşırıq və sərəncamları əsasında bu sahədə zəruri tədbirlər Naxçıvan Muxtar Respublikasında da uğurla davam etdirilir.

Biz də muxtar respublikada II Qarabağ müharibəsi və sonrakı dövr ərzində həyata keçirilən sosial layihələr barədə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşı ***Vüsal Babayev***lə həmsöhbət olduq. Müsahibimiz bildirdi ki, 44 günlük Vətən müharibəsində öz qanı ilə tarix yazan, Vətən uğrunda canlarından keçən, şəhid olmuş 122 nəfərin 110-u Naxçıvan Muxtar Respublikası ərazisində dəfn olunmuşdur. Şəhidlərdən 14-ü Naxçıvan şəhərində, 31-i Şərur rayonunda, 16-sı Babək rayonunda, 4-ü Ordubad rayonunda, 16-sı Culfa rayonunda, 18-i Kəngərli rayonunda, 9-u Şahbuz rayonunda, 2-si isə Sədərək rayonu ərazisində dəfn olunmuşdur. II Qarabağ müharibəsi bitdikdən sonra 37 şəhidin övladlarına sosial müavinət, həmçinin 122 şəhid ailəsi üzvünə, 92 nəfər müharibə əlilinə və 1204 müharibə veteranına Prezident təqaüdü təyin edilib. Bu da onu bariz nümunəsidir ki, dövlətimiz bu həssas kateqoriyadan olan vətəndaşlarına daim qayğı ilə yanaşır.

Vüsal Babayev qeyd etdi ki, Naxçıvan Muxtar Respublikasında II Qarabağ müharibəsi və sonrakı dövr ərzində xəsarət almış şəxslərdən 92-nə Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlillik təyin edilib ki, onlardan 59-u avtomobillə təmin olunmuşdur. II Qarabağ müharibəsindən sonra 33 şəhid ailəsi, 25-i müharibə əlili olmaqla cəmi 58 ailə mənzillə təmin edilib, sosial rifahı yaxşılaşdırılıb.

Naxçıvan Protez-Ortopedik Bərpa Mərkəzi tərəfindən daim diqqətdə saxlanılan Vətən müharibəsi əlillərindən 55 nəfər protez-ortopedik, həmçinin köməkçi və texniki reabilitasiya vasitələri ilə təmin olunmuş, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzi tərəfindən 2 nəfər aşağı ətraf, 3 nəfər isə yuxarı ətraf yüksək texnologiyalı protezlə təmin olunmuşdur.

Şəhid ailələri, müharibə iştirakçıları və onların yaxınları üçün yaradılan Psixoloji Dəstək Xidmətində 32 nəfər şəhid ailəsi üzvü, 25 nəfəri müharibə iştirakçısı olmaqla, ümumilikdə, 57 nəfərə psixoloji xidmət göstərilib, 18 nəfər putyovkalarla təmin olunub, 30 nəfərə isə müalicə və reabilitasiya mərkəzlərinə göndəriş verilərək onların sağlamlığı nəzarətdə saxlanılıb.

Söhbət zamanı vurğulandı ki, Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatının yaxşılaşdırılması məqsədilə yaradılan dəstək fondu tərəfindən 4 şəhid ailəsinin və 22 müharibə iştirakçısının muxtar respublikadan kənarda müalicə və psixoloji dəstək xərcləri qarşılanıb, 48 şəhid ailəsinin və 21 müharibə iştirakçısının məişət şəraiti yaxşılaşdırılıb, 9 şəhid ailəsinin və 14 müharibə iştirakçısının kredit borcları və 1 şəhid ailəsinin təhsil haqqı ödənilib, həmçinin 49 şəhidin ailə üzvü və 17 müharibə əlili özünüməşğulluğa cəlb olunaraq himayə edilib. Həmçinin 16 şəhid ailəsi üzvü işlə təmin olunmuş, 4 şəhid ailəsi üzvü, 1 müharibə əlili və 1 müharibə veteranı isə peşə kurslarına cəlb olunub. Ümumilikdə, bu günədək 68 şəhid ailəsi üzvünün, 29 müharibə əlilinin və 92 müharibə veteranının özünüməşğulluğu təmin edilib.

II Qarabağ müharibəsində Füzuli istiqamətində gedən döyüşlərdə yaralanan qazi ***Əli Əlisoy*** dövlətimiz tərəfindən həyata keçirilən sosial layihələrlə bağlı fikirlərini bölüşərək dedi: “Müharibə zamanı hər qarış torpağımız azad olunarkən döyüş yoldaşlarımla keçirdiyimiz böyük qürur, fərəh hissi hələ də xatirimdə



canlanır. Ağır müharibə günlərində də, müharibədən sonra da Ali Baş Komandanımızın dəstəyini daim üzərimizdə hiss etdik. Müharibədən sonra müxtəlif medallarla təltif olunmağımız, qazi və şəhid ailələrinə xüsusi diqqət və qayğının, ehtiramın bariz ifadəsi kimi bizləri çox sevindirir. Müharibədən sonra Qıvraq qəsəbəsində 2 otaqlı mənzillə təmin olundum. Göstərilən bu qayğıya görə cənab Prezidentimizə qazilərimiz adından minnətdarlığımı bildirirəm. Biz daim Vətənin keşiyində durmağa hazırıq.

Söhbətimizdə bir daha əmin olduq ki, Azərbaycan dövlətinin şəhid ailələrinin qazilərin, müharibə iştirakçılarının sosial müdafiəsini gücləndirmək üçün reallaşdırdığı layihələr böyük təqdirlə, razılıqla qarşılanır.

*Azərbaycan Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi, ölkəmizdə həyata keçirilən dövlət siyasətinin mərkəzində Azərbaycan xalqı dayanır, onun sosial rifahının günü-gündən yaxşılaşdırılması dayanır. Təqdirəlayiq haldır ki, dövlət başçısının rəhbərliyi ilə böyük işlər görülür.*

**Bülbül QULİYEVA**

# Şəhidlərin ordenləri onların ailə üzvlərinə təqdim edilib



*Prezident cənab İlham Əliyevin müvafiq sərəncamlarına əsasən ərazilərimizin işğaldan azad olunması uğrunda aparılan hərbi əməliyyatlarda iştirak edərək igidlik və şücaət göstərmiş, döyüş tapşırıqlarını uğurla yerinə yetirərək Vətən müharibəsi zamanı şəhidlik zirvəsinə yüksəlmiş qəhrəman hərbçilərimiz müxtəlif orden və medallarla təltif olunub.*

Babək, Kəngərli, Şahbuz və Sədərək Rayon İcra hakimiyyətlərində ordenlərin növbəti təqdimatı keçirilib. Şəhidlərin ordenləri onların ailə üzvlərinə təqdim olunub. Tədbirlərdə əvvəlcə Vətən uğrunda canlarını qurban verən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Babək Rayon İcra Hakimiyyətinin başçısı Rasim Hüseynov, Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov, Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Rəfael Babayev və Sədərək Rayon İcra Hakimiyyətinin başçısı Mahirə Adnayeva ordenləri şəhidlərin ailə üzvlərinə təqdim ediblər.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamlarına əsasən şəhid gizir Ümid Novruzlu, şəhid əsgər Rasim Ramazanov, şəhid əsgər Elvin Teymurov, şəhid əsgər İmaməddin Hümbətov, şəhid baş leytenant Həmid Qasımov, şəhid əsgər Niyaməddin İsgəndərov, şəhid əsgər Aslan Mirzəyev, şəhid əsgər İsmayıl Yüzbaşyev, şəhid əsgər Qəşəm Səfərov, şəhid əsgər İman Alməmmədov, şəhid əsgər Ramin Bağırov, şəhid əsgər Rüfət Gözəlov və şəhid əsgər Tağı Abdullazadə 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif olunublar.

Şəhid valideynləri övladlarının qəhrəmanlıq və şücaətindən söz açıb, onların igidliklərinin qiymətləndirilməsinə görə dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər.

**Xəbərlər şöbəsi**

# Təcrübəçi tələbələrlə görüşlər olub



AMEA Naxçıvan Bölməsinin Əlyazmalar Fondunda Naxçıvan Dövlət Universitetinin Xarici dillər fakültəsi əyani şöbəsinin Tərcümə (Ərəb-Azərbaycan dilləri) və Tərcümə (Fars-Azərbaycan dilləri) ixtisasları üzrə IV kurs tələbələrinin tərcümə təcrübəsi başlayıb. Təcrübə müddətində tələbələr ixtisas istiqamətləri üzrə biliklərini təkmilləşdirmək, əlyazma və çap kitablarının mətnləri ilə tanış olmaq, fond əməkdaşları ilə fikir mübadiləsi aparmaq, elmi məsləhətlər almaq imkanı əldə edəcəklər. Təcrübənin başlaması münasibətilə AMEA Naxçıvan Bölməsində tələbələrlə görüş olub.

Bölmənin sədri, akademik İsmayıl Hacıyev çıxış edərək tədris prosesində qazanılmış biliklərin praktikaya tətbiqinin əhəmiyyətindən danışıb, ixtisas biliklərinin təkmilləşdirilməsində önəmini qeyd edib.

Akademik bildirib ki, Əlyazmalar Fondunda tələbələr təcrübə rəhbərlərinin müəyyənləşdirdiyi planda nəzərdə tutulan tapşırıqları yerinə yetirməklə dildən istifadə bacarıqlarını inkişaf etdirə, bölmə rəhbərliyinin, alim və tədqiqatçıların məsləhət və köməyindən, yaradılan şəraitdən tam istifadə edərək bu müddətdən səmərəli faydalana bilərlər.

Bölmənin Əlyazmalar Fondunun baş direktoru, filologiya elmləri doktoru Fərman Xəlilov çıxışında bildirib ki, təcrübə müddətində fond əməkdaşları və tələbələrin iştirakı ilə müxtəlif mövzular üzrə seminarların, müzakirələrin keçirilməsi nəzərdə tutulub.

Görüşdə çıxış edən Naxçıvan Dövlət Universitetinin müəllimi Ceyhun Əliyev bildirib ki, tələbələrin təcrübə müddətində kollektiv şəkildə kitab tərcümə etmələri, təcrübənin sonunda həmin kitabların fond əməkdaşlarının elmi redaktorluğu ilə nəşri nəzərdə tutulub.

Qeyd edək ki, tərcümə təcrübəsi may ayının 31-dək davam edəcək.

***

Naxçıvan Dövlət Universitetində magistrantların elmi-tədqiqat, bakalavrların isə istehsalat və pedaqoji təcrübələrinin başlanğıc konfransları baş tutub.

Bu münasibətlə keçirilən tədbirlərdə magistrantların elmi-tədqiqat bacarıqlarının inkişaf etdirilməsində təcrübənin əhəmiyyəti diqqətə çatdırılıb. Bildirilib ki, magistratura təhsil pilləsində təhsil alan II kurs magistrantlar tədris ilinin yaz semestrində 4 həftəlik elmi-tədqiqat təcrübəsi keçəcək.

Diqqətə çatdırılıb ki, təcrübələr muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələri və digər dövlət orqanları ilə sıx əməkdaşlığı, tələbələrin pedaqoji ustalıqlara yiyələnmələri baxımından xüsusi əhəmiyyət kəsb edir. Eyni zamanda təcrübələr gələcəyin peşəkar kadrlarının bu peşəyə layiqlik dərəcəsi və səviyyəsini üzə çıxaracaq bir fəaliyyət sahəsi, həmçinin mütəxəssis, pedaqoq hazırlığı formalarından biridir.

Qeyd edək ki, universitetin əyani şöbəsində istehsalat təcrübəsi üzrə 29 ixtisasdan 442 tələbə 31 müəssisə və təşkilatda 54 metodistin nəzarəti altında təcrübə keçəcək. Pedaqoji təcrübə üzrə isə 17 ixtisasdan 397 tələbə muxtar respublikanın 16 sayda şəhər məktəbində və Babək rayonunun Şıxmahmud kənd



tam orta məktəbində 74 metodistin nəzarətində təcrübələrini davam etdirəcək.

Məlumat üçün onu da bildirək ki, istehsalat təcrübəsinə cəlb edilən tələbələr dövlət qurumları, nazirliklər, müxtəlif mərkəz və təşkilatlar, komitələr, televiziya, qəzet redaksiyasında və bu kimi 28 dövlət müəssisəsində 14 həftə müddətində təcrübə keçəcəklər.

***

Naxçıvan Muxtar Respublikası Turizm Departamentində Naxçıvan Dövlət Universitetinin Turizm və otelçilik ixtisası üzrə təhsil alan IV kurs tələbələrinin 17 fevral 2023-cü il tarixdən 31 may 2023-cü il tarixədək keçəcəkləri istehsalat təcrübəsi ilə bağlı görüş keçirilmişdir.

Tədbiri giriş sözü ilə departamentin direktoru Əkbər Novruzov açaraq istehsalat təcrübəsinin tələbələr üçün əhəmiyyətindən danışmışdır.

Direktor təcrübədə tələbələrin praktiki bacarıqlarının inkişafına və ixtisaslı bir turizm işçisi kimi formalaşmalarına xüsusi diqqət yetiriləcəyini, təcrübə prosesində tələbələrin fəallıq göstərməsinin vacibliyini vurğulayaraq onlara uğurlar arzulamışdır.

Sonra Naxçıvan Dövlət Universitetinin müəllimi, təcrübə rəhbəri Nigar Bababəyli, Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin Statistika və Sertifikatlaşdırma sektorunun müdiri Süleyman Rüstəmov çıxış etmişlər.

Tədbirin sonunda tələbələri maraqlandıran suallar cavablandırılmış, muxtar respublikanın turizm potensialını əks etdirən videoçarxa baxış keçirilmişdir.

**Xəbərlər şöbəsi**

### İtmişdir

Hüseynəlili Zivər İnşallah qızının adına olan 487000 nömrəli Yeni Azərbaycan Partiyasının üzvlük vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 131